

# TARİXİN QAN YADDAŞI

## 20 Yanvar faciəsindən 28 il keçir





# Böyük qırğına hazırlıq gedirdi

Ötən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində sovet dövləti Azərbaycana qarşı qərəzli mövqe tutmuşdu. Xalqımızın çoxminli nümayəndələrinin Ermənistandakı ata-baba torpaqlarından vəhşicəsinə qovulmasına laqeydliklə göz yumulurdu. Qarabağda cərəyan edən hadisələrə əhəmiyyət verilmirdi.

Əksinə, imperiya Azərbaycana öz qəzəbini əyani şəkildə reallaşdırmaq üçün bəhanələr axtarırdı. Xalqın hərəkətlərində, davranışında isə bunu tapmaq mümkün deyildi. Çünki insanların məqsədi dava-dalaşdan, qırğından, qan tökməkdən çox-çox uzaq idi. Bir kimsə əlinə silah götürməmişdi.







Nəticədə imperiya özü əl-ayağa düşüb aranı qarışdırmaq yolu tutdu. Bakıda iğtişaşlar törətdi. Adımızı “ekstremist”, “terrorçu” qoydu. Bu, imperiyanın öz mənfur niyyətini gerçəkləşdirmək üçün atdığı addımlar idi. Ermənipərəst Qorbaçovun rəhbərlik etdiyi dövlət Azərbaycan xalqının istək və arzularına başqa bir “don geyindirdi”, Bakıya ordusunu tankla, top-tüfənglə göndərdi. Bu, “baş məşq” idi...

Azərbaycan xalqına qarşı törədilən qanlı cinayətə, olmazın qırğınlara - 20 Yanvar hadisələrinə cəmi bir neçə gün qalırdı...

*“Azərbaycan”*